# Haqlı mübarizənin qalibi

Azərbaycanın iştirak etmədiyi Qranada görüşündə Fransanı moderatorluğu ilə əvvəlcədən hazırlanan, Paşinyanın, Şolzun, Makronun və Şarl Mişelin də imzaladığı "birgə" bəyanat qəbul edildi. Siyasi müşahidəçilər qəbul edilən bəyanatda Azərbaycan ərazisinin 86,600 kvadratkilometr qeyd edildiyini, sənədi imzalayan Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını müsbət hal kimi dəyərləndirirlər…




Maraqlıdır, başqa nə cür ola bilərdi ki?..

Birincisi, ortalıqda 1991-ci ilin 21 dekabrında imzalanan Alma-Ata Bəyannaməsi var. Tərəflərin imzaladığı həmin sənəddə Azərbaycanın ərazisi 86,600 kvadratkilometr, Ermənistanın ərazisi də 29,8 kvadratkilometr olduğu qeyd edilib.

Qranada bəyanatına imza atan dövlətlər 35 illik Qarabağ münaqişəsi dövründə sərgilədikləri ədalətsiz, islamofobiya, Azərbaycanofob mövqeləri ilə xüsusi fərqlənənlərdir. Əllərində başqa imkanları olmadıqları, beynəlxalq qanunlara qarşı açıq etiraz edə bilmədikləri üçün imzaladıqları bəyanatda məcbur olaraq ərazilərimizi olduğu kimi göstəriblər. Bunun başqa variantı mümkün deyil. İndiyə kimi az-çox tərəfsiz mövqe nümayış etdirən Aİ-nin prezidenti Şarl Mişelin də son zamanlar sərgilədiyi ədalətsiz, ermənipərəst mövqeyi bizi qəti təəccübləndirməməlidir. Bu xristian həmrəyliyi, separatizmə ikili standartlarla yanaşma faktı ilə üzləşməyimizin nə ilkidir, nə də sonu…

Fransanın Ermənistanın ağır məğlubiyyəti ilə nəticələnən 44 günlük müharibədən sonra ədalətsiz və qatı ermənipərəst mövqeyi bu dövləti Cənubi Qafqaz siyasətindən kənar qoydu. Elə Qranada da Fransa tərəfindən hazırlanan və tərəfkeş tərəflərin birgə imzaladığı bəyanatın qəbuledilmə səbəbi də bu ölkənin yenidən Cənubi Qafqaz siyasətinə qayıtmaq niyyətinin məhsuludur.

Xatırladaq ki, Azərbaycanın iştirakı olmadan imzalanan bəyanatda "Qarabağ ermənilərinin kütləvi köçünə görə Ermənistana əlavə humanitar yardımın zəruriliyi" qeyd olunur. Bəyanatı imzalayanlar da, onu hazırlayıb masaya təqdim edən Fransa da yaxşı bilir ki, əvvəllər "etnik təmizləmə", indi də "kütləvi köç" adlandırdıqları Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalinin ərazilərimizdən çıxarılmasının dövlətimizlə heç bir əlaqəsi yoxdur. Azərbaycan dəfələrlə Qarabağda yaşayan erməni icmasının nümayəndələrinə reinteqrasiya haqqında israrla təklifini verib və Azərbaycan Konstitusiyasının və dövlətinin vətandaşların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasının təminatçısı olduğunu bəyan edib.

Əslində, Qarabağdan ermənilərin "kütləvi köçü" Fransa və Ermənistanın birgə planlaşdırdığı məqsədli oyundur. Bəyanata diqqət yetirəndə bunun konturlarını görməmək mümkün deyil: "…qaçqınların öz evlərinə və yaşayış yerlərinə qayıtmaq hüququ heç bir şərt olmadan beynəlxalq monitorinq altında, tarixlərinə, mədəniyyətlərinə və insan hüquqlarına lazımi hörmətlə yanaşılmaqla azad şəkildə həyata keçirilməlidir".

Bəyanatı imzalayanların gizli niyyətlərini buradan açıqca hiss etmək olur. "Heç bir şərt" olmadan deməklə geri qayıtmaq istəyən ermənilərin Azərbaycan vətəndaşlığını qəbul etməsi zərurəti avtomatik olaraq aradan qalxır. Bu o deməkdir ki, bəyanat müəllifləri Ermənistandan və dünyanın müxtəlif yerlərindən gətirilib Qarabağa qanunsuz yerləşdirilmiş ermənilərin geri dönüşünü "beynəlxalq hüquqi təminatla" sığortalayıb bəd niyyətlərini həyata keçirmək, Qarabağı separatizmin və terrorçuluğun yuvası etmək niyyətlərindən hələ də əl çəkməyiblər.

"Beynəlxalq monitorinq" ifadəsini bu bəyanata salanlar monitorinqi həyata keçirəcək dövlətlərin də siyahısını dəqiqləşdiriblər. 30 il ATƏT-in Minsk qrupunun tərkibində "vasitəçilik" edən Fransa şübhəsiz ki, bu dəfə də "beynəlxalq monitorinq" maskası taxıb regiona "daha böyük missiya" ilə qayıtmaq istəyir.

Bu 35 ildə biz sizin simanızı, əslində, simasızlığınızı çox görüb yaxşı tanımışıq. Nəinki "beynəlxalq monitorinq" keçirməyə, heç ərazilərimizə kənardan "binokl" ilə baxmağınızı belə istəmirik.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 10 oktyabr.- S.9.